# Dörd respublikanın xüsusi adamı olmuş azərbaycanlı

## Əhməd Ələsgərov əla hissiyyata malik böyük psixoloq idi

Kənan



**2012-ci il, sentyabrın 1-də Odessada növbəti dəfə şəhər günü qeyd edilirdi. Həmin gün şəhərdə daha bir əlamətdar mərasim planlaşdırılmışdı. "Çernomorets" - "Zarya" oyunundan əvvəl "Futbol şöhrəti" xiyabanının açılışı oldu.**

Azarkeşlər və jurnalistlər arasında keçirilən sorğudan sonra "Futbol şöhrəti" xiyabanında ilk 12 xatirə ulduzunun kimlərin şərəfinə ucaldılacağı məlum olmuşdu. Onların arasında bir azərbaycanlı da var idi. Ələsgərov Əhməd Lətif oğlu. Bəli, bu, odur, keçmiş SSRİ çempionatları tarixində Azərbaycan futboluna yeganə medalı bəxş etmiş mütəxəssis. "Neftçi" məhz onun rəhbərliyi altında 1966-cı ildə bürünc medala sahib çıxmışdı. Bəs Əhməd Ələsgərov Ukraynada - Odessada necə peyda olmuşdu? O, odessalıların sevgisini necə qazanmışdı? Təkcə odessalılarınmı sevgisini qazanmışdı? Bəs taciklər, moldovanlar niyə ona böyük sevgi və ehtiram göstərirlər? Darıxmayın, keçmiş SSRİ-nin tərkibinə daxil olan dörd respublikanın xüsusi adamı olmağı bacarmış bu unikal azərbaycanlı şəxsiyyət barədə müfəssəl məlumat verəcəyik. Verəcəyik ki, gənc nəsil harada yaşamasından, işləməsindən asılı olmayaraq, Azərbaycanı ləyaqətlə təmsil etmiş həmyerliləri haqqında bilgiyə sahib olsunlar. Bilgiyə sahib olsunlar ki, ondan nümunə də götürə bilsinlər.

### TƏQDİMAT

Ələsgərov Əhməd Lətif oğlu. 1935-ci il, oktyabrın 5-də Bakıda anadan olub. O, futbolçu karyerasını bütünlüklə "Neftçi"yə həsr edib. 1955-ci ildən 1965-ci ilə qədər bu komandanın şərəfini qoruyub. Ələsgərov "Neftçi"nin heyətində SSRİ çempionatlarında 115 oyun keçirib. Ampluaca yarımmüdafiəçi olub. Elə məşqçilik fəaliyyətinə də "Neftçi"də başlayıb. Məşqçilik karyerasının ilk ilində "Neftçi" 31 yaşlı mütəxəssisin rəhbərliyi altında tarixinin ən böyük uğuruna imza atıb. 1966-cı ildə komanda SSRİ çempionatında bürünc medal qazanıb. 1966-70-ci illər Azərbaycan futbolunun intibah dövrü sayılır. Sözsüz ki, həmin dövrdə futbolun inkişaf etməsində Əhməd Ələsgərovun da böyük əməyi olub. Məhz bu xidmətlərinə görə, Ələsgərov 1968-ci ildə "Şöhrət nişanı" ordeni ilə təltif olunub. Heç müasir futbolda da 31 yaşlı məşqçi ilə teztez rastlaşmaq mümkün deyil. 31 yaş futbolçu karyerasında müdrikləşmə vaxtı sayılır. O yaşda məşqçilərə isə südəmər uşaq gözü ilə baxırlar. Keçmiş SSRİ-də isə bu yaşda olan bir gəncə respublikanın əsas komandasını həvalə etmək ümumiyyətlə, ağlasığmaz idi. Ələsgərovun xarizması, bacarığı, intellektual səviyyəsi o qədər yüksək idi ki, rəhbərlik ölkənin əsas komandasını ona - dünənki "uşağa" tapşırmaq üçün özündə cəsarət tapdı. Təbii ki, Əhməd Ələsgərova bu vəzifəni həvalə edənlər həm də risk etmişdilər. Özü də böyük risk. Uğursuzluq olacağı təqdirdə onları bağışlamayacaqdılar. Dünənki "uşağa" etibar etdiklərinə görə. Amma Ələsgərov onların etimadını tamamilə doğrultdu. Onun rəhbərliyi altında "Neft"çi SSRİ çempionatlarında 9-cu pillədən aşağı düşmədi. Bundan sonra SSRİ futbolunda Əhməd Ələsgərov brendi formalaşdı. Özü də çox sürətlə.

### ONUN ARDINCA OVA ÇIXDILAR

Ələsgərov 1970-ci ilə qədər "Neftçi"də işlədi. 1972-ci ildə o, Tacikistandan dəvət aldı. Tacikistan heç vaxt futbol ölkəsi sayılmayıb. Respublika rəhbərliyi ölkənin əsas komandası "Pamir"i inkişaf etdirmək üçün Ələsgərovu dəvət etdi. Düşənbədə cəmisi bir il qala bildi. Amma bu bir ildə də respublika futbolunun inkişafına öz töhfəsini verə bildi. Elə ona görə də Tacikistanın əməkdar məşqçisi adına layiq görüldü. Onun ardınca sözün əsl mənasında ova çıxmışdılar. 1972-ci ildə Ələsgərov artıq Ukraynada - Odessada idi. Onu Odessaya gəlməyə sadəcə, məcbur etmişdilər. Ələsgərov Odessaya gəlişini belə nəql edirdi: "Həmin vaxt mənimlə SSRİ çempionu olan "Zarya" da maraqlanırdı. Voroşilovqrad təmsilçilərindən 2 ay gizlənə bildim. Onlar mənimlə danışıq aparmaq üçün 6 nəfərlik nümayəndə heyətilə gəlmişdilər. Voroşilovqardlılar məni hər yerdə axtarırdılar. Hətta ardımca Polşaya da gəlmişdilər. "Çernomorets" variantı olmasaydı, bu məsələnin nə ilə nəticələnəcəyini təsəvvür edə bilmirəm. Odessalılar bu işdə daha böyük inadkarlıq göstərdilər. Onlar hara gedirdimsə orda - Düşənbədə, Bakıda, İvano-Frankovskda peyda olurdular. Yura Romanov ("Çernomorets"in o vaxtkı rəhbərlərindən biri) mənim arxamca bütün SSRİni səyahət edirdi. Özü ilə araq və qara kürü də daşıyırdı. İnad etdiyimi görüb, mənimlə daha yüksək səviyyədə danışmağa başladılar. Özü də sərt şəkildə. Məni SSRİ idman komitəsinə, futbol federasiyasına dəvət edib, xəbərdarlıq etdilər: "Razılaşmasan, səni futboldan siləcəyik".

Bu xəbərdarlıqdan sonra Ukrayna Kommunist Partiyasının sədri Klopov və katibi Poqrebnyakla görüşdüm. Ondan sonra əmin oldum ki, Odessaya getməliyəm".

### ODESSANI SSRİ FUTBOLUNUN ELİTASINA NECƏ DAXİL ETDİ?

Ələsgərov Odessaya gələndə "Çernomorets" SSRİ çempionatının birinci dəstəsində çıxış edirdi. Respublika rəhbərliyi komandanın elitaya vəsiqə qazanmasını istəyirdi. Ələsgərov "Çernomorets"i qəbul edəndə komanda birinci dəstədə 14-cü pillədə qərarlaşmışdı: "Çernomrets" rəhbərliyim altında keçirdiyi ilk iki oyundan qələbə ilə ayrıldı. Səfərdə Nalçik və Orcenikidze "Spartak"larını məğlub etdik. Odessaya qayıdandan sonra rəhbərlik mənimlə yenidən görüşdü və növbəti mövsüm elitaya yüksələ biləcək komanda formalaşdırmağımı istədilər. Onlar mənə vaxt verirdilər. Amma mən komandanı yaxşı tanıyırdım. "Çernomorets"də təkcə təşkilatçılıq çatmırdı. Özlüyümdə qərar verdim ki, elitaya elə bu il yüksəlməliyik".

Bir-birinin ardınca qələbələr qazanan "Çernomorets" Əhməd Ələsgərovun rəhbərliyi altında elə həmin il SSRİ çempionatının yüksək dəstəsinə vəsiqə qazandı. Bu, inanılmaz idi. Bütün Odessa bayram edirdi. Amma ən böyük uğur hələ bundan sonra olacaqdı. "Çernomorets" elitadakı ilk mövsümündə bürünc medala sahib çıxdı. Özü də komandanın əvəzedici heyəti də eyni uğuru təkrarlamışdı. Bu məqamda xatırladaq ki, Ələsgərov "Neftçi"də eyni nailiyyətə imza atmışdı. Bu da onu göstərirdi ki, o, əsas komanda ilə yanaşı, gənc futbolçuların yetişməsinə də müstəsna əhəmiyyət verirdi. Bundan sonra Əhməd Ələsgərov artıq Odessada milli qəhrəman hesab olunurdu.

### XARAKTERİ, İNTİZAMI VƏ OYUN FƏLSƏFƏSİ

Əhməd Ələsgərov bu uğura necə nail oldu? Onun qələbəsinin sirri nədə idi? O, "Çernomorets"lə müqavilə bağlayandan sonra mətbuata belə açıqlama vermişdi: "Bura birinci yeri tutmaq üçün gəlmişəm. Mənim komandamda heç kim siqaret çəkməməli, pivə bakalına yaxınlaşmamalıdır. Hər kəs bilməlidir ki, oyundan sonra hamı bazaya getməlidir. Avtobusda kənar şəxslər olmamalıdır. Futbol məsələsində heç kimi tanımıram - atamı da, həyat yoldaşımı da, partiya katibini də".

Ələsgərovun rəhbərliyi altında "Çernomorets"in heyətində oynamış Vladimir Neçayev onu belə xarakterizə edir: "Ələsgərov cənublu temperamentinə xas, qeyri-adi insan idi. Onunla işləmək asan deyildi. Ancaq o, komanda ruhunu yüksəldə bildi. Təbii ki, onda diktatora xas xüsusiyyətlər var idi. Ancaq biz onun bu xüsusiyyətini çox asanlıqla qəbul etdik. O, futbolçularla dil tapmağı bacarırdı. Bu isə çox böyük amildir".

Anatoli Doroşenkonu dinləyək: "Zaman-zaman oyun keyfiyyətimizin necə yüksəldiyini görürdük. SSRİ-nin ən yaxşı



komandalarını elə asanlıqla məğlub edirdik ki... O, əla hissiyyata malik böyük psixoloq idi. Ələsgərov dərhal futbolçuların etimadını qazandı".

### BAKI ONUN İLK MƏHƏBBƏTİDİR

Əhməd Ələsgərov heç vaxt intriqalara qoşulmadı. O, məşqçi ləyaqətini qorumağı bacardı. İş naminə kiməsə arxadan zərbə vurmaq onun xarakterinə ziddi idi: "Bir dəfə Voronejin "Fakel" klubundan təklif aldım. Razılaşdım və Voronejə gəldim. Məni elə qarşıladılar ki, hətta əvvəlcə özümü itirdim. Gəlişimin şərəfinə necə tort hazırlandığını görsəydiniz... Düşündüm ki, "Fakel"də işləmək üçün hər cür şərait yaradılıb. Amma artıq axşam öyrəndim ki, komandanın baş məşqçi postu boş deyil. Çox fikirləşmədim, hazırlaşdım və elə ertəsi gün evə qayıtdım. Düzdür, yola düşməzdən əvvəl "Fakel"in baş məşqçisi Şevçenko ilə görüşüb, danışdım, ona uğurlar arzuladım. Düşünürəm ki, o qərarım düzgün idi. Mən sadəcə, başqa cür hərəkət edə bilməzdim. Vicdanım buna yol verməzdi".

Ələsgərov 1988-89-cu illərdə Moldova futbolunun əsas komandası "Nistru"ya da rəhbərlik etdi. Komandaya qısa müddətdə rəhbərlik etməsinə baxmayaraq, Moldova futbolunda da iz qoydu. O, müstəqil Azərbaycan yığmasının ilk məşqçisi kimi də tarixə düşüb. Ələsgərov 1992-1993 və 1998-2000-ci illərdə Azərbaycan yığmasının baş məşqçisi olub. Harda işləməsindən, hansı ölkədə yaşamasından asılı olmayaraq, həmişə Azərbaycana bağlı olub: "Bakı gözəl şəhərdir. Günü-gündən dəyişir. Amma mən onu müasirləşmiş formada yox, elə 50-60-cı illərdə olduğu kimi sevirəm. Bakı mənim ilk məhəbbətimdir. Dar küçələri, dalanları ilə sevmişəm Bakını..."

Əhməd Ələsgərov 2015-ci ilin 19 mayında Odessada vəfat edib. Ünlü məşqçini Odessada böyük ehtiramla dəfn ediblər. Yaşasaydı, oktyabrın 5-də 80 yaşını qeyd edəcəkdi.

